

# Qarabağ Zəfərinin təntənə ünvanı – Hərbi Qənimətlər Parkı

*Ötən ilin payızında Qələbəmizdən bir gün sonra–noyabrın 11-də Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizin Vətən müharibəsində düşməndən qənimət götürdüyü, “dəmir yumruq”la yararsız hala saldığı hərbi texnikaların ölkəmizin paytaxtında nümayiş etdirilməsinin gərəkliyini söyləmişdi. İşğalçı dövlətlə mübarizədə “Mən nəyi nə zaman və necə edəcəyimizi yaxşı bilirəm”– deyən Azərbacan lideri bu layihəsinin gerçəkləşdirilməsini də çox ləngitmədi.*



Bakıda Qələbə paradında nümayiş etdirilən “üzüqara” düşmən texnikası açıq səma altında nəhəng bir nümayiş meydanı olan dənizkənarı bulvaraın kənarına aparıldı və burada Qarabağ savaşının Hərbi Qənimətlər Parkının yaradılmasına start verildi. İşlər qısa zamanda yekunlaşdı. Qarabağ Zəfərindən 5 ay keçmiş, xoş müjdəli bir bahar günündə Ali Baş Komandanımız İlham Əliyev Xəzərin sahilində açıq səma altında dünyada nadir parklardan biri olan Hərbi Qənimətlər Parkını Qələbə sevinci bitib-tükənməyən xalqımıza hədiyyə etdi. İlk gündən Azərbaycan Ordusunun qüdrətinin, Vətən oğullarının yurdsevərliyinin nəyə qadir olduğunu parlaq surətdə əks etdirən bu zəfər ünvanı çoxsaylı soydaşlarımızın və paytaxt qonaqlarının axın-axın üz tutduqları bir məkana çevrildi.

Hər bir Azərbaycan vətəndaşı kimi mən də parkı həyəcan və qürurla ziyarət etdim. Parkın girişində ziyarətçiləri qəhrəman Azərbaycan əsgərlərinin maketləri qarşılayır. Azərbaycan əsgərinə çox yaraşan duruşlarındakı əzəmət, üzlərindəki qalib ədası, ümumi görüntüdəki zəfər təntənəsi bura gələnlərə sonsuz qurur bəxş edir. Əlbəttə, qalib ölkənin vətəndaşı olmaq, o qüruru yaşamaq çox fərqli duyğudur. Parkı gəzdikcə qulaqlarımda unudulmaz şairimiz Tofiq Bayramın dillər əzbəri olmuş misraları əzəmətlə səslənirdi:

*Vətən mənim bugünüm,*
*Sabahkı toy-düyünüm.*
*Haqqım var ki, öyünüm,*
*Azərbaycan deyəndə.*

Azərbaycan Ordusunun əzdiyi və qənimət götürdüyü düşmənə məxsus olmuş 522 hərbi yük maşınının nömrələrindən tərtib edilmiş lövhənin nümayişi Zəfər ziyarətçilərini uzaqdan cəlb edir. Hamı düşmənin ağır məğlubiyyətinin miqyasını ifadə edən bu mənzərənin qarşısında qürurla şəkil çəkdirir. Bu nömrələr qənimət kimi götürülmüş düşmən hərbi texnikası və döyüş sursatının kiçik hissəsindən xəbər verir. Ermənilərin qoyub qaçdığı saysız-hesabsız atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar da sərgilənən qənimətlər sırasındadır.

Parkın ərazisinə daxil olduqda, ilk növbədə, informasiya guşəsi və onunla üzbəüz qoyulmuş suvenirlər pavilyonunda, üzərində “Nooldu, Paşinyan!”, “Zəfər bizimdir”, “Qarabağ Azərbaycandır!” yazılmış köynəklər, maykalar, kepkalar, tirmələr, kəlağayılar, qızılı xarıbülbül, Qarabağın xəritəsi həkk olunmuş boyunbağılar və başqa Qələbə rəmzləri seyrçilərin diqqətini çəkir. Bu suvenirlər ölkəmizi tanıtmaq üçün xarici turistələrə təqdim olunan dəyərli töhfələrdir.

Parkda döyüş günləri Ali Baş Komandanın qələbələrimiz barədə vaxtaşırı məlumatlarında adları və sayları qeyd edilən KUB zenit-raket kompleksi, tırtıllı ağır texnika, düşmənin 150-dək ağır texnikası, “T-72” tankları, piyadaların döyüş maşınları, 2S1 “Qvozdika” özüyeriyən artilleriya qurğusu, “Osa” zenit-raket kompleksi və digər eksponatlar da nümayiş olunur. Qeyd edək ki, bu qənimətlərin içərisində bir xeylisi hələ də döyüşə yararlıdır.

Hərbi Qənimətlər Parkının ən maraqlı guşələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, 10 elementdən ibarət mühəndis-istehkamları sisteminin nümayiş etdirildiyi ərazidir. 5 metr enində, 3–4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, beton dirəklər və metal “kirpilər”, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr Azərbaycan əsgərinin hansı sədləri aşdığından xəbər verir. Bu maraqlı görüntülər düşmənin 30 ildə qurduğu və adını da “məğlubedilməz” qoyduğu səngərləri canlandırır. Ordumuz artıq onların külünü göyə sovurmuşdur. İndi parkı ziyarətə gələn uşaqlar həmin “məğlubedilməz səngərlər” də qaçdı-tutdu oynayırlar.

Hərbi Qənimətlər Parkında Azərbaycan əsgərini görüb qorxudan gözləri böyüyüb hədəqədən çıxan düşmən əsgərlərinin maketləri xüsusilə maraqlıdır və önündə dayanıb şəkil çəkdirənlərin sırası uzundur.

Qırx dörd günlük Vətən müharibəsi zamanı baş verənlərin xronoloji ardıcıllıqla qeyd olunduğu infoqrafika lövhəsində 2020-ci ilin 27 sentyabrından 10 noyabrına qədər təkcə ordumuzun əldə etdiyi uğurlar deyil, eləcə də mənfur düşmənin Gəncədə, Bərdədə, Tərtərdə, Ağdamda, Goranboyda dinc sakinlərə qarşı törətdikləri hərbi cinayətlər haqqında da məlumatlar yer alıb. Şuşaya atılmış “İskəndər M” raketlərinin qalıqları məndə daha çox həyəcan yaratdı. Dua etdim qeyri-ixtiyari: “Uca Yaradan, bir daha bizə ağır günlər yaşatma. Ulu Tanrı, ölkəmizə uzanan yad əlləri kökündən kəs, düşməni həmişə xar et!”

Parkda gəzdikcə, qurban verdiyimiz minlərlə şəhidimizi aramsız olaraq xatırlayaraq, onların müqəddəs ruhlarına dualar oxudum. Bu gün xoşbəxt körpələrimiz bu parkda dünyanın şər işlərdən xəbər verən mənzərələrin ağuşunda məhz onların hünəri və canlarını qurban verməleri nəticəsində canlı dava-dava oyununa baxır, şənlənirlər. Ölkəmiz ərazi bütövlüyünü məhz bu döyüşlərdə qalib gəlməklə bərpa etdi. Qoy xalqımızın nəsibi həmişə Zəfər olsun! Düşmənlər isə bizə əbədi öyünc bəxş edən Qələbənin onlar üçün bu acı sonluğundan ibrət dərsi alsınlar.

**Əminə YUSİFQIZI,**
**Əməkdar jurnalist**

Xalq qəzeti 2021.- 30 aprel.- S.9.